# Astarada şəhid ruhları əbədi ehtiramla anılır



❒ ***Azərbaycanın ərazi bütövlüyü uğrunda şanlı mübarizədə Astara igidləri də fəal iştirak ediblər. Onlardan 124 nəfəri müqəddəs şəhidlik zirvəsinə ucalıb. 44 günlük Vətən müharibəsində isə 41 astaralı gənc canından keçib.***

Hazırda Astara şəhərində Zəfər Parkı inşa edilir. Eyni zamanda Şəhidlər Xiyabanı yenidən qurulur. Şəhərin Heydər Əliyev prospektində tikilən Zəfər Parkının ərazisi 1400 kvadratmetrdir. Artıq burada əsas abidənin tikintisi, ərazinin hasara alınması və hörgü işləri başa çatdırılıb, inşaatçılar suvaq işlərini davam etdirirlər. Bundan sonra isə üzlük və tamet daşlarının düzülməsinə başlanılacaq. Vətən müharibəsinin qəhrəmanı – Azərbaycan əsgərinin abidəsi parkın mərkəzində ucaldılacaq. Ərazidə həmişəyaşıl bəzək kolları və güllər əkiləcək.

Astara şəhərindəki Şəhidlər Xiyabanında isə yenidənqurma işləri sürət və keyfiyyətlə davam edir. Burada əzəmətli “Ana” heykəli, “Əbədi məşəl” abidə-kompleksi inşa olunub, 500 kvadratmetr ərazidə döşəmənin tamet daşları dəyişdirilib, pilləkənlər, divarlar mərmər tavalarla, yan divarlar isə qranit daşlarla üzlənib. Abidənin ətrafındakı mərmər lövhələrdə Birinci və İkinci Qarabağ müharibələrində, həmçinin tarixi Aprel döyüşlərində canlarını qurban vermiş qəhrəman oğulların adları həkk olunacaq. Ətrafda Azərbaycan bayraqları dalğalanacaq.

Hər iki obyektdə işlərin aprel ayında başa çatdırılması nəzərdə tutulub.

***Əli NƏCƏFXANLI,***
***“Xalq qəzeti”nin bölgə müxbiri***

Xalq qəzeti 2021.- 18 fevral.- S.5.